# "Azərbaycanla Rusiya arasındakı dialoqu ədalətin bərpası kimi qəbul etmək olar"

**Azərbaycanın xarici siyasəti milli maraqlara əsaslanır. Bu baxımdan ölkəmizin digər ölkələrlə, xüsusilə region dövlətləri ilə münasibətləri vurğulanmalıdır. Azərbaycan region dövlətləri ilə yaxın və mehriban qonşuluq əlaqələrinə böyük önəm və hər zaman münasibətlərdə ədalət və beynəlxalq hüquq prinsiplərinə üstünlük verir, o cümlədən qonşu Rusiya ilə münasibətləri də analoji komponentlər əsasında qurur.**

Milli Məclisin deputatı Sevinc Fətəliyeva "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, ötən ilin dekabrında baş vermiş təyyarə qəzasından sonra Azərbaycan bu məsələdə özünün haqlı mövqeyini ifadə etmişdir: "Ölkəmizin bu məsələdə mövqeyi beynəlxalq hüquqa əsaslanırdı - mülki təyyarənin vurulmasına görə günahkarlar cəzalandırılmalı və zərərçəkənlərə təzminat ödənilməlidir. Düşənbədə MDB dövlət başçılarının sammiti çərçivəsində Azərbaycan və Rusiya liderlərinin görüşü məsələyə aydınlıq gətirdi. Görüşdə Rusiya Prezidentinin açıqlaması Azərbaycanın mövqeyi ilə uzlaşırdı".

Deputatın sözlərinə görə, Azərbaycan hər zaman yaxın qonşuluq münasibətlərinin inkişafında maraqlı tərəf kimi çıxış edir: "Baş verənlərin fonunda bizim Rusiyaya qarşı hər hansı bir iddiamız olmayıb, sadəcə, rəsmi



Bakı qəzaya hüquqi qiymət verilməsini, Moskvanın üzərinə düşən məsuliyyəti yerinə yetirməsini arzulayıb. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə bu mövqeyi bəyan edib. Proseslər göstərir ki, Azərbaycan hər zaman dialoq tərəfdarıdır və Rusiya ilə münasibətlər kontekstində də dialoq amili xüsusi vurğulanmalıdır. Nəzərə almaq lazımdır ki, Azərbaycan təkcə Rusiyaya yanaşmada deyil, digər ölkələrlə də münasibətlərdə dialoqa üstünlük verir. Buna nümunə olaraq, Azərbaycanla Fransa arasında dialoqu göstərmək olar. Məlumdur ki, uzun müddət idi Fransa ölkəmizə qarşı ədalətsiz, qərəzli mövqe sərgiləyirdi. Lakin ölkəmiz daim özünün haqlı mövqeyini qorumuş, rəsmi Parisə öz haqlı mövqeyini bəyan etmişdir. Avropa Siyasi Birliyinin son sammitində Azərbaycan və Fransa liderlərinin görüşü ölkəmizin dialoqa verdiyi önəmi bir daha nümayiş etdirdi. Yəni bu amil dövlətimizin haqlı mövqeyinin qəbul olunmasını şərtləndirir", - deyə S.Fətəliyeva əlavə edib.

Deputat onu da bildirib ki, bu baxımdan Azərbaycanla Rusiya arasındakı son dialoqu nəticə etibarilə ədalətin bərpası kimi qəbul etmək olar: "Bu gün Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlıq mövcuddur. Azərbaycan Rusiyanın xarici iqtisadi tərəfdaşlarından biridir. Bu gün iki ölkə arasında iqtisadi əlaqələr uğurla inkişaf edir. Ümid edirik ki, yaranmış hazırkı müsbət atmosfer münasibətlərimizin inkişafına, mövcud olan müəyyən problemlərin ədalətli həllinə müsbət təsir göstərəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 14 oktyabr (№220).- S.6.